Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Sentyabr 2023

www.ereforms.gov.az
info@ereforms.gov.az

## AZƏRBAYCAN MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ ÜÇÜN TÜRKİYƏ VƏ AVROPA BAZARLARI İSTİQAMƏTİNDƏ ETİBARLI TRANZİT ÖLKƏSİDİR.

Nəqliyyat və logistika sahəsi münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir. Əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil. Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat–logistika infrastrukturu onlar üçün açıqdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 14 sentyabr 2023-cü il tarixində Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündəki nitqi**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 19

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2023-cü ilin yanvar-avqust ayları ərzində 24,4 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-avqust aylarında qeyri-neft sektoru üzrə ixrac 2,2 milyard ABŞ dolları təşkil etmişdir

2023-cü ilin yanvar-avqust ayları ərzində Azərbaycanın ümumi ixracı **24,4 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə **14,6%** artaraq **2,2 milyard ABŞ dolları** təşkil edib. 2023-cü ilin yanvar-avqust ayları ərzində yeyinti məhsulları üzrə ixrac **571,4 milyon ABŞ dollarına** bərabər olub.

Cari ilin ilk 8 ayı ərzində elektrik enerjisi 3,9 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 3,8 dəfə, qara metal məmulatlarının ixracı 36,6%, şəkər ixracı 17,9%, meyvə-tərəvəz ixracı isə 7,4% artıb.

2023-cü ilin yanvar-avqust ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,4% artaraq 593,9 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 32,8% artaraq 132,6 milyon ABŞ dolları təşkil edib.

2023-cü ilin yanvar-avqust ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (315 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (124,3 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (83,4 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2023-cü ilin yanvar-avqust ayları ərzində Rusiya Federasiyasına 721,5 milyon ABŞ dolları, Türkiyəyə 586,6 milyon ABŞ dolları, Gürcüstana 219,1 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 86,4 milyon ABŞ dolları, Qazaxıstana isə 72,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Cari ilin avqust ayının qeyri-neft ixracı **203,6 milyon ABŞ dolları** olub. Bunun da 51,4 milyon ABŞ dollarını (10,3% artım) yeyinti məhsulları üzrə ixrac, 152,2 milyon ABŞ dollarını isə qeyri-yeyinti məhsulları üzrə ixrac təşkil edib.

2023-cü ilin avqust ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (79,6 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (31,4 milyon ABŞ dolları) ikinci və Gürcüstan (20,4 milyon ABŞ dolları) üçüncü olub.



2023-cü ilin avqust ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında şaftalı (17,4 milyon ABŞ dolları) birinci, ilkin formalı polipropilen (10,8 milyon ABŞ dolları) ikinci və polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (9,6 milyon ABŞ dolları) üçüncü olub.

# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2023-CÜ İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 | 2023

-10%

2022: **226,2 mln**

2023: **203,6 mln**



# 2023-CÜ İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2023 İXRAC İCMALI sentyabr

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**593,9 mln $**

2022/2023 **+10,4%**



Aqrar məhsullar: **461,3 mln $** — 2022/2023 **+5,3%**

Aqrar-sənaye məhsulları: **132,6 mln $** — 2022/2023 **+32,8%**

# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2023-CÜ İLİN AVQUST AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI sentyabr



# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI sentyabr

| Mal | 2023 | 2022 |
| --- | --- | --- |
| Metanol (metil spirti) | 58,9 | 92,5 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 50,1 | 61,5 |
| Şaftalı | 45 | 28,7 |
| Albalı və gilas | 44,6 | 41,6 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 sm$^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 43,8 | 3,3 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 41,9 | 19,6 |
| Karbamid | 41,8 | 142,2 |
| Digər yağlar və məhsullar | 39,8 | 47,8 |
| Kartof | 31 | 35,1 |

# 2023-CÜ İLİN AVQUST AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2023 | 2022 |
|---|---|---|
| Şaftalı | 17,4 | 12,3 |
| PP İlkin formalı polipropilen | 10,8 | 7,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 9,6 | 0 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 8,9 | 8,1 |
| PE İlkin formalı propilen sopolimerləri | 6,3 | 4,5 |
| Meşə fındığı | 6,1 | 3,5 |
| Karbamid | 6,1 | 20,3 |
| Metanol (metil spirti) | 6 | 11,2 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 $sm^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 5,8 | 1,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2023-cü ilin yanvar-avqust ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: Şirinov Elvin Valeh oğlu, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "My Fruit" MMC, "Mega Fruit Az" MMC, "Almeyvə" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023
İXRAC İCMALI
sentyabr



2023 İXRAC İCMALI sentyabr

# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** 2023-cü il üçün «AzərGold» QSC-nın yenilənmiş cədvəli əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) **12,7 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2023-cü ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın **45 ölkəsinə 12,7 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos” xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2023-cü ilin avqust ayında isə “Azərkosmos” dünyanın **40 ölkəsinə 1,5 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2023-cü ilin yanvar-avqust ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 3,6 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 2,7 milyon ABŞ dolları ilə Lüksemburq, 1,1 milyon ABŞ dolları ilə BƏƏ, 713,2 min ABŞ dolları ilə Almaniya və 539,9 min ABŞ dolları ilə Nigeriya qərarlaşıb.

2023
İXRAC İCMALI
sentyabr

# 2023-CÜ İLİN YANVAR-AVQUST AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 12,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 3,6 mln $ | Birləşmiş Krallıq |
| 2,7 mln $ | Lüksemburq |
| 1,1 mln $ | BƏƏ |
| 713,2 min $ | Almaniya |
| 539,9 min $ | Nigeriya |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar-avqust ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 1,4 milyard manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2023-cü ilin yanvar-avqust aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **1,4 milyard manat**, yalnız avqust ayında isə **200,9 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2023 İXRAC İCMALI sentyabr

| | 2021* | 2022 | 2023 |
|---|---|---|---|
| Yanvar | 72,2 | 204,7 | 171,5 |
| Fevral | 112,2 | 186,5 | 162,3 |
| Mart | 93,2 | 158,6 | 218,1 |
| Aprel | 64,1 | 136,6 | 126 |
| May | 81,3 | 184,1 | 173,4 |
| İyun | 89,7 | 203,6 | 148,6 |
| İyul | 96 | 214 | 218,8 |
| Avqust | 105,3 | 214,6 | 200,9 |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 714 mln | 1,5 mlrd | 1,4 mlrd |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin sentyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 31,6 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2023-cü ilin sentyabr ayı ərzində **83 müraciət** daxil olub. Müvafiq dövr ərzində **210 ədəd sertifikat** (41 ədəd mənşə, 158 ədəd fitosanitar, 3 ədəd baytarlıq, 8 ədəd CİTES) təqdim edilib.

2023-cü ilin sentyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **31,6 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pendir, qənnadı məmulatları, nar və qarışıq şirələr, narşərab, limonad, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti və kürüsü, iribuynuzlu heyvanların subməhsulu, tibbi zəli, elektrik mühərriki, su nasosları, köklü süxur nümunələri, köpüklənən polistrol əsaslı ekstruz olunmuş lövhələr, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, polad armatur yayması, pambıq mahlıcı, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti və kürüsü, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, BƏƏ, Kanada, Litva, Moldova, Avstraliya. Rumıniya, ABŞ, Türkmənistan, Qazaxıstan, Özbəkistan üstünlük təşkil etmişdir.



# 2023-CÜ İLİN SENTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)






# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)

**74,9%**
Fitosanitar sertifikatı

**19,6%**
Mənşə sertifikatı

**4%**
CİTES sertifikatı

**1,5%**
Baytarlıq sertifikatı

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən “İxrac İcmalı” jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat